**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarına dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nda dəyişiklik edilməsi haqqında” 2024-cü il 18 yanvar tarixli 29 nömrəli və “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında” 2024-cü il 25 yanvar tarixli 43 nömrəli qərarlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənddən “Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu” sözləri çıxarılsın, “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin;

1.2. Həmin Qaydaya əlavə - “Elektron anketin forması” üzrə:

1.2.1. 18-ci hissəsinə “olması” sözündən sonra “, himayədar ailənin tərbiyəsinə verilməsi” sözləri, “şəxs” sözündən sonra “, himayədar valideyn(lər)” sözləri əlavə edilsin;

1.2.2. 19 - 21-ci, 30-cu, 31-ci və 35-ci hissələrdə “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” sözləri ilə əvəz edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “15” fevral 2024-cü il

№ 11